

Mürvət Möhübbətoğlu

# Gödəkliyə gedək

Sən gedib İrandan keç Ordubada,
Hörmətlə deyərlər xoş gəldin? qağa.
Biri evə dəvət edər, biri də bağa,
Ordubad bəllidir Azərbaycana.
Ordubaddan keçib qalxarsan dağa,
O dağdan Xusdubun qoxusu gəlir.
Xusdub dağından da en Qazan gölə,
Ordan da Gödəkli qoxusu gəlir.
Xusdub zirvəsindən dön Qafana bax,
Üç rəngli bayrağı lap zirvəyə tax.
Yatmaq vaxtı deyil, dur, ayağa qalx!
Düşmənlərin qanın sən daşlara yax.
Bizlər gərək hələ dinc dayanmayaq,
Nə yolla olsa da Qafanı alaq.
Yenidən biz Zəngəzura qayıdaq.
Gödəkli kəndini sahmana salaq.
Dükan əldən gedib, kulub sökülüb,
Məktəbin damı uçub içinə tökülüb,
Yolların asvaltdan yoxdur xəbəri,
Xaraba qoyublar daşnaqlar kəndi.
Mən Mürvətəm gecə-gündüz bilmərəm.
El-obanı ürəyimdən silmərəm,
Kəndimizi yığışıb abad edək.
Ellikcə hamımız Gödəkliyə gedək.

ŞEİR 23

Kaspi 2019.- 23-25 fevral.- S.23.